XACƏ NƏSİRƏDDİN TUSİ

# ADABÜL-MÜTƏƏLLİMİN

## (Tələbəlik mədəniyyəti)

Bakı - 2002
Azərbaycan Milli Elmlər Akademiyası
Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

TUSİ - 800



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# XACƏ NƏSİRƏDDİN TUSİ

# ADABÜL-MÜTƏƏLLİMİN

## (Tələbəlik mədəniyyəti)

Bakı, Nurlan, 2002

**Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 5 dekabr 2001-ci il tarixli 11 №-li iclasının qərarı ilə nəşr edilir.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Ərəb dilindən tərcümə edən və ön sözün müəllifi:**

**Kamandar Şərifli**

**Redaktoru: Məmməd Adilov**

**Kompüter icraçısı: Suad Əhmədov**

***Dahi Azərbaycan alimi və mütəfəkkiri Xacə Nəsirəddin Tusinin (1201-1274) orta əsr tələbəlik mədəniyyətinə, təlim-təhsil qaydalarına həsr edilmiş "Adabül-mütəəllimin" risaləsinin tərcüməsi müəllifin anadan olmasının 800 illik yubileyi münasibəti ilə ilk dəfə nəşr edilir.***
***Kitabça orta əsrlər Azərbaycanında eləcə də bütövlükdə Müsəlman Şərqində məktəb və mədrəsələr, təlim-təhsil tarixi ilə maraqlanan mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

**Грифли** **460300000 - 199** / ***N* - 098-2002**

**© «Nurlan», 2002**

**ƏDƏB ƏDƏBİYYATININ DƏYƏRLİ ABİDƏSİ**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Qədim zamanlarda Yaxın və Orta Şərq ölkələrində, eləcə də Azərbycanda "ədəb" istilahı altında ata-babalardan irsən övladlara verilmiş adət-ənənələr, əxlaq normaları və davranış qaydaları nəzərdə tutulurdu.[1] VII yüzillikdə islam dininin qələbəsindən və mərkəzləşdirilmiş ərəb xilafəti yaradıldıqdan sonra isə "ədəb" istilhının ifadə etdiyi mənalar genişlənərək, rəngarəng bilgiləri əhatə edən ədəb ədəbiyyatının yaranmasına gətirib çıxarmışdır. Ədəb ədəbiyyatı adət-ənənələr, əxlaq normaları, davranış qaydaları ilə yanaşı, orta əsr ziyalıların bilməsi zəruri olan geniş bilgilər kompleksini öyrədirdi. Bu bilgilər kompleksi hər şeydən öncə böyük miqdarda ədəbi-tarixi və filoloji materialları əhatə edirdi. Şərq mədəniyyətinin əsasını təşkil edən həmin materiallar da öz növbəsində qədim mətnlərin oxunmasına və dərk edilməsinə imkan verir, ənənəvi ruhda yazıb- yaratmağın yollarını öyrədirdi. Ədəb ədəbiyyatında verilmiş bilgilər kompleksinin oxucuların diqqətini özünə cəlb etməsi üçün onlar əyləncəli formada, tarixi və məişət lətifələri, nəsihətamiz şer və hekayələr, başqa ölkələrə səyahətlərdən verilən məlumatlar şəklində də təqdim olunurdu. Ədəb ədəbiyyatının əsas məqsədi insanların təlim- tərbiyəsinə, onların geniş dünyagörüşünə malik ziyalılar kimi yetişməsinə yönəldilmişdi.**

**Ədəb ədəbiyyatının əhatə etdiyi bilgilər kompleksi geniş və rəngarəng olduğundan onların bir qismi insanların, ilk növbədə şəhərlilərin əylənməsi və istirahəti üçün nəzərdə tutulurdu. Bütün bunlarla yanaşı, ədəb ədəbiyyatının elə abidələri də vardır ki, onlar müəyyən ixtisas sahibləri üçün yazılmışdır. Ayrı-ayrı dövlət başçıları və dövlət məmurları, katiblər, yenicə elm öyrənən tələbələr üçün elmi mübahisə və müzakirələrin aparılması haqqında yazılmış əsərlər bu qəbildəndir. Həmin əsərlərdə hökmdarların və müxtəlif vəzifə sahiblərinin öz vəzifə borclarını uğurla və düzgün yerinə yetirməsinin yolları, katiblərin hansı qabiliyyətlərə və bilgilərə yiyələnməsinin zəruriliyi və iş üsulları, yenicə təhsil alan şagirdlərin təlimində tətbiq edilən düzgün tədris metodları, müxtəlif məsələlər üzrə müzakirə aparmağın qaydaları və başqa məsələlər şərh edilirdi. Yarımdidaktik şəkildə yazılan ədəb ədəbiyyatı nümunələri əsasən nəsr şəklində qələmə alınmışdır.**

---

[1] Ш.Пелла. Вариации на тему адаба. Арабская средневековая культура и литература, Москва, 1978.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**VIII əsrin görkəmli ərəb klassiki Abdullah ibn əl-Müqəffa[2] (720-756), XIV əsrin görkəmli alimi Ədudəddin əl-İci[3] (1281-1355), XV əsrin Azərbaycan alimləri Məhəmməd Hənəfi Qarabağі[4] (?-1494), Mir Əbülfəth əl-Ərdəbili[5] (140-ci ildən sonra ölmüşdür) və Əbu Bəkr bin Əbdürrəhman ən-Nəhavəndi[6], Kəmaləddin Məsud əş-Şirvani[7], həmçinin Məhəmməd bin Əşrəf əl-Hüseyni əs-Səmərqəndi[8] (?-1203/04), Hüsyen bin Əli əl-Kaşifi əl-Vaiz əl-Hərəvi[9] (?-1509/10), Cəlaləddin Məhəmməd bin Əsəd əs-Siddiqi əd-Dəvvani[10] (?-1502/03), Əli bin Əmrullah ibn əl-Hənai[11] (?-1571/72) kimi bir sıra orta əsr alimləri ədəb ədəbiyyatının formalaşmasında mühüm rol oynamışlar.**

**Ədəb ədəbiyyatı sahəsində qələmini sınamış və bu sahədə mükəmməl abidələr yaratmış alimlərimizdən biri də XIII əsr Azərbaycan və dünya mədəniyyətinin görkəmli dühalarından olan Nəsirəddin Məhəmməd Tusidir (1201-1274). Onun "Əxlaqi-Nasiri" və "Adabül-mütəəllimin" əsərləri ədəb ədəbiyyatının ən dəyərli nümunələrindəndir.**

**Alimin "Əxlaqi-Nasiri" fundamental əsəri dilimizə tərcmə edilərək, iki dəfə nəşr olunmuşdur. "Adabül-mütəəllimin" risaləsi isə ilk dəfə Tusinin yubileyi münasibəti ilə nəşr edilir.**

**"Əxlaqi-Nasiri"nin tərcüməçisi R.Sultanovun yazdığı kimi, Tusi yalnız yüksək qayə, böyük arzu, möhkəm ideya naminə həmin əsərini üç məqaləyə**

---

[2] И.М.Фильштинский. История арабсой литературы V-X веков, М., 1985, с.341; **Абдуллащ ибн ял-Мцгяффа. Ял-Ядябцс-сяьир вя Ял-Ядябцл-кябир, Бейрут, 1960**

[3] **Ядудяддин Ябдцррящман ял-Ижи. Ядябцл-бящс, ЯЙИ: Б-733**

[4] **Мящяммяд Щяняфи Гарабаьи Тябризи. Шярщ яла "Ядябил-бящс", ЯЙИ: Б-1404**

[5] **Мир Ябулфятщ ял-Ярдябили. Щашийя яла «Шярщи-"Ядябил-бящс"». ЯЙИ: Б-6713**

[6] **Ябу Бякр бин Ябдцррящман ян-Нящавянди. Ядяби-шериййя, ЯЙИ: А-316**

[7] **Камаляддин Мясуд яш-Ширвани. Шярщ Яла "Ядябил-Фазил Шямсяддин". Катиб Чяляби. Кяшфцз-зцнун... I жилд, Истанбул, 1941, сящ.39**

[8] **Мящяммяд бин Яшряф ял-Щцсейни яс-Сямяргянди. Ядябцл-Фазил Шямсяддин. Катиб Чяляби. Кяшфцз-зцнун… I жилд, Истанбул, 1941, сящ.39-41**

[9] **Щцсейн бин Яли ял-Ваиз ял-Щяряви. Яхлаги-Мущсини. Катиб Чяляби. Кяшфцз-зцнун... I жилд, Истанбул, 1941, сящ.37-38**

[10] **Жямаляддин Мящяммяд яс-Сиддиги яд-Дяввани. Яхлаги-Жялали. Катиб Чяляби. Кяшфцз-зцнун... I жилд, Истанбул, 1941, сящ.37**

[11] **Ибн ял-Щянаи. Яхлаги-Ялаи. Катиб Чяляби. Кяшфцз-зцнун... I жилд, Истанбул, 1941, сящ.37**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**ayırmış, birinci məqaləni ideal insan, ikinci məqaləni ideal ailə, üçüncü məqaləni ideal cəmiyyət yaratmaq probleminə həsr etmiş, beləliklə, cəmiyyətin üç əsas, dəyişməz, məcburi tərkibini də müəyyənləşdirmişdir[12].**

**Nəsirəddin Tusi ədəb ədəbiyyatına dair 12 fəsildən ibarət "Adabül-mütəallimin" ("Tələbəlik mədəniyyəti") risaləsini "Əxlaqi-Nasiri" əsərindən sonra yazmışdır. Müəllif bu əsərində elm öyrənməyə başlayan tələbələrə təhsil almağın düzgün yollarını və metodlarını göstərmişdir. Alim tədrisin metod və üsullarının düzgün müəyyənləşdirilməsinə böyük əhəmiyyət vermiş və haqlı olaraq tələbələrin müxtəlif elmi biliklərə yiyələnməsində tədris metodunun mühüm rol oynadığını qeyd etmişdir. Bununla əlaqədar əsərin müqəddiməsində belə deyilir: "Bir çox tələbələr çalışsalar da, elmə yiyələnmək onlara müyəssər olmamışdır. Onlar cəhd göstərsələr də, bunun səmərəsini görməmişlər, çünki onlar təhsil yollarında səhv etmiş, onun şərtlərinə əməl etməmişlər. Təhsil yolunda səhvə yol vermiş hər bir kəs azaraq, qarşısına qoyduğu məqsədə çatmamışdır".[13]**

**Nəsirəddin Tusi bu və ya digər məsələlərin şərhində tez-tez Allah kəlamlarına, Peyğəmbər (s) hədislərinə, atalar sözləri və məsəllərə, eləcə də hikmətli sözlərə müraciət etmişdir. Bütün bunlar müəllifin əsərini daha da zənginləşdirmiş və məntiqini daha da gücləndirmişdir. Elə əsərin birinci fəslində Məhəmməd Peyğəmbərin (s) məşhur hədisinə müraciət edərək, hər bir kəsi elm öyrənməyə və tərəqqiyə çağırmışdır: "Hər bir müsəlman kişi və müsəlman qadın elm öyrənməyə borcludur".**

**Alim elm öyrənməyin yollarını, elmin mahiyyətini və əhəmiyyətini ətraflı şərh edir. Elmə və elm əhlinə səmimi qəlbdən böyük ehtiram göstərilməsinin zəruriliyini qeyd edir, tələbələri pis insanlardan və pis əxlaqi keyfiyyətlərdən uzaq olmağa çağırır. O, fars dilində mənzum bir hikmətli sözlə öz fikrini belə ifadə etmişdir:**

**Bacardıqca pis dostdan uzaq ol,**
**Pis dost pis ilandan qorxuludur.**
**Zəhərli ilan ancaq səni sanca bilər,**
**Pis dost isə sənin canına və imanına zərər yetirər.**

---

[12] **Хажя Нясиряддин Туси. Яхлаги-Насири. Бакы, 1980**
[13]**Нясиряддин Туси. Адабцл-мцтяяллимин, ЯЙИ: Б-2608, Б-5200**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Nəsirəddin Tusi elm öyrənən tələbənin çalışqan olmasını və elmin bütün incəliklərinə yiyələnməyə səy göstərməsini və bu yolda dönməz olmasını başlıca amil hesab edir.**

**O, elmin əbədi olduğunu aşağıdakı xalq hikməti ilə təsdiq etmişdir: "Alimlər ölsələr də, canlıdırlar". Çünki alim öldükdən sonra onun əsərləri qalır, onun özünün əvəzinə insanları onun əsərləri öyrədir.**

**Müəllif yazır ki, ömür qısa, elm isə geniş, rəngarəng sahələrə malikdir. Elm öyrənmək üçün tələbə gecə və gündüzdən səmərəli istifadə etməlidir. O yazır ki, "gecə uzundur, onu yatmaqla qısaltma. Gündüz işıqlandırır, günahlarınla onu bulandırma". Tusi insanları,eləcə də elm öyrənən şəxsi təkəbbürdən, xəsislikdən, ədavətdən, həsəddən uzaq olmağa çağırır, bütün vaxtını elm öyrənməyə sərf etməyi lazım bilir. İnsanları da digər canlılardan fərqləndirən onun əqli, zəkası, düşüncəsi və elmidir. Müəllif elmin insanlar üçün əbədi səadət olduğunu deyir. Ona görə də o, insana elm öyrədən, onu daha işıqlı gələcəyə aparan müəllimə xüsusi hörmət və qayğı göstərməyi zəruri hesab edir.**

**Nəsirəddin Tusi özünün "Adabül-mütəallimin" əsərində tələbələrin elmi biliklərə yiyələnməsinin düzgün metod və yollarını göstərməklə bərabər, onlara yüksək insani keyfiyyətlərin aşılanmasına, xalqın tərəqqisində və inkişafında elmin rolunu tam aydınlığı ilə şərh etməyə çalışmışdır. Beləliklə də, Xacə Nəsirəddin Tusi göstərilən əsərləri ilə orta əsr ədəb ədəbiyyatının ən dəyərli abidələrini yaratmışdır.**

**Bismillahirrəhmanirrəhim**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Allah-Taalaya iltifatına görə həmd edirəm. Nemətlərinə görə Ona şükr edirik. Onun peyğəmbərlərinin Seyyidinə və Onun qəyyumluğu altında olanların ən yaxşısına Allahın xeyir-duası və salamı olsun.**

**Sonra isə:**

**Bir çox tələbələr çalışsalar da, elmə yiyələnmək onlara müyəssər olmamışdır. Onlar cəhd göstərsələr də, bunun səmərəsini görməmişlər, çünki onlar təhsil yollarında səhv etmiş, onun şərtlərinə əməl etməmişlər. Təhsil yolunda səhvə yol vermiş hər bir kəs azaraq, qarşısına qoyduğu məqsədə çatmamışdır. Mən təhsil almağın yolunu kitablardan oxuduqlarımın və ilk ustadlarımdan eşitdiklərimin əsasında müxtəsər şəkildə açıqlamaq istəyirəm.**

**Uğur verən və hər şeyi aydınlaşdıran Allahdır!**

**Burada təhsilin məqsədini aşağıdakı fəsillərdə aydınlaşdırıram.**

## Birinci fəsil
## Elmin mahiyyəti və fəziləti haqqında

**Ərz edim ki, Rəsulullah (səllallahu əleyhi və alihi) demişdir: "Hər bir müsəlman kişi və müsəlman qadın elm öyrənməyə borcludur".**

**Burada nəzərdə tutulan elm elmi-haldır (vəziyyətin öyrənilməsidir), yəni nəticəsi mənfəət əldə etməyə gətirib çıxaran elmdir ki, bu haqda deyirlər. "Ən yaxşı elm vəziyyətin öyrənilməsi, ən yaxşı əməl isə [əldə edilmiş] nəticənin qorunmasıdır".**

**Tələbənin öz vəziyyətini yaxşılaşdırması onun üzərinə borc kimi qoyulur. Elm insana məxsus olduğundan onun nəticəsi heç kəsdən gizli deyil, çünki elmdən başqa, şücaət, qüvvət, şəfqət və sair kimi bütün keyfiyyətlərdə insanla bərabər, başqa canlılar da iştirak edir.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Allah-Taala Adəmin mələklər üzərində üstünlüyünü elmlə göstərdi və əmr etdi ki, onlar Adəmə səcdə qılsınlar. Əgər bu iş tələb olunan kimi yerinə yetirilərsə, elm əbədi səadətə çatmaq üçün vasitədir. Mükəlləf şəxsə tapşırılmış elm öyrənilməlidir, əgər o öyrənməsə, məcbur edilməlidir.**

**Ehtiyac olduqda bəzən insanın istedadı fərz kimi götürülür, [ancaq] belə etdikdə bəzi adamlar başqalarından geri qalırlar. Ətrafda [istedadı fərz kimi götürülən] olmadıqda təhsildə hamı vacibat kimi iştirak edir. Belə demişlər ki, elm həmişə qida qədər əhəmiyyətlidir - deməli, hər kəs üçün vacibdir, bəzi hallarda isə insanın ehtiyac duyduğu dava-dərman kimi xeyirlidir. Xəstəlik vaxtı nücum elminin öyrənilməsi haramdır, çünki zərər yetirir, qiblənin namaz vaxtının və s. öyrənilməsi üçün [isə] faydalıdır və bu [baxımdan] haram deyildir.**

**Elmin mahiyyətinə gəlincə, bu, elmlə məşğul olana aydın olan keyfiyyətdir. Tələbə əvvəl-axır ona nəyin faydalı, nəyin zərərli olduğunu nəzərdən qaçırmamalı, faydalı şeylə məşğul olmalı, zərərli şeydən uzaq qaçmalıdır ki, ağlı və elmi ona bir sübut olsun, cəzası artmasın.**

## İkinci fəsil
## Niyyət haqqında

**Elm öyrənənin elm öyrənməyə mütləq niyyəti olmalıdır. Niyyət bütün hallarda əsasdır, çünki Allah-Taala demişdir: “Həqiqətən [bütün] işlər niyyətlə görülür”. Peyğəmbər (səllallahu əleyhi və alihi) isə buyurmuşdur: “Hər insanın niyyət etdiyi bir şey var”.**

**Tələbə Allahın rizası üçün elm öyrənməyi, cahilliyi özündən və başqa cahillərdən yox etməyi, islamı qoruyub-saxlamağı, dini əmri- mərufla yaşatmağı, özünə və özündən asılı olanlara və s. imkan daxilində nəhyi-münkəri qadağan etməyi niyyət etməlidir. Elm öyrənən [tələbə] çətinliklər içində olmalı, var qüvvəsi ilə çalışmalıdır, fani və mənasız dünyada öz ömrünü faydasız işlərə sərf etməməli, acgözlük ucbatından özünü zəlil etməməli, kin-küdurətdən kənar və təkəbbürdən uzaq olmalıdır.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Üçüncü fəsil
## Elmin, müəllimin, tələbə yoldaşının və səbatlığın seçilməsi

**Elm öyrənən [tələbə] elmlərin ən yaxşısını - dini işlərdə ehtiyac duyduğunu, sonra isə mal-dövlət qazanmaq üçün ehtiyac duyduğu elmləri seçməlidir. Tövhid elmini və Allah-Taalanın dəlillə tanınmasını ön plana çəkməli, yenilikləri yox, keçmişi seçməlidir. [Axı] demişlər ki: "Sizə keçmişi öyrənmək lazımdır, yeniliklərdən çəkinin". [Tələbə də qədim] mətnləri seçir, necə ki, deyilmişdir: "Sizə haşiyələr yox, mətnlər lazımdır".**

**Müəllimə gəldikdə isə, tələbə onun ən savadlısını, ən dindarını və ən yaxşısını seçməlidir. Elm öyrənilməsi, yəni hansı elm üzrə təhsil almağa girişmək istəyi ətrafında məsləhətləşmək lazımdır. Tələbə təhsil almaq istədiyi şəhərə daxil olduqda alimlərlə əlaqədar müxtəlif fikirlərə düşməyə tələsməməlidir. Əgər tələbə iki ay səbir edərək, bu müddət ərzində özünə müəllim seçərsə, o həmin müəllimi tərk edəndə onun xeyir-duasını almamış başqa bir müəllimin yanına getməz. Hər hansı bir müəllimi və öyrəndiyi kitabı yarımçıq tərk etməmək üçün səbirli və möhkəm olmaq lazımdır. Bir fənnə dərindən yiyələnməyincə başqa bir fənlə məşğul olmaq olmaz. [Tələbə] zərurət olmadan təhsil aldığı şəhərdən başqa bir şəhərə getməməlidir, [çünki] bütün bunlar [tələbəni] təhsillə bağlı işlərdən ayırır, fikrini yayındırır və vaxt aparır.**

**Tələbə yoldaşı isə xeyirxah, ən dindar və həqiqətpərəst xasiyyətli insanlardan seçilməlidir. Tənbəldən, tüfeylidən, çox danışandan, pozğun və söz gəzdirəndən uzaq olmaq lazımdır. Bu haqda fars hikmətli sözündə mənzum şəkildə belə deyilir:**

**Bacarcıqca pis dostdan uzaq ol,**
**Pis dost pis ilandan qorxuludur.**
**Zəhərli ilan səni ancaq sanca bilər,**
**Pis dost isə canına və imanına zərər vurar.**

**Həmçinin belə demişlər:**

**Torpaq öz adları ilə tanınar,**
**Dost isə öz dostu ilə tanınar.**

**Elmə və elm əhlinə səmimi qəlbdən böyük ehtiram göstərmək lazımdır. Belə demişlər ki, kitabın təharətsiz ələ alınmaması, mütaliə edilməməsi və dərs oxunmaması üçün qadağa itaətkarlıqdan yaxşıdır. Yazı yazan zaman**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**yazının keyfiyyətini yaxşılaşdırmaq, sıx və xırda yazmamaq, haşiyəyə ancaq zərurət olduqda müraciət etmək lazımdır...**

**Elm istehza ilə yox, hörmət və ehtiramla dinlənilməlidir. Elm sahəsi tələbə tərəfindən deyil, müəllim tərəfindən seçilir, çünki müəllim tədris prosesində bu sahədə lazımi təcrübə əldə etmiş olur. Müəllim hər kəsə nəyin lazım olduğunu və hər kəsin təbiətinə nəyin münasib olduğunu daha yaxşı bilir.**

**Elm öyrənən tələbə dərs zamanı zərurət olmadan müəllimə yaxın oturmamalıdır. Onunla müəllim arasında bir kaman məsafəsi olmalıdır - bu məsafə hörmət əlamətidir.**

**Elm öyrənən tələbə pis əxlaqi keyfiyyətlərdən uzaq olmalıdır, çünki pis əxlaq mənəvi itdir. Rəsulullah (səllalahu əleyhi və alihi) demişdir: "İt, yaxud it şəkli olan evə mələklər gəlməz".**

## Dördüncü fəsil
## Ciddilik, səy və çalışqanlıq haqqında

**Elm öyrənən tələbə həm də ciddi çalışqan və dönməz olmalıdır. [Bununla əlaqədar] deyilmişdir: "Bir şey istəyən və onu cidd-cəhdlə axtaran axırda tapar, bir qapını döyən və inadkarlıq göstərən içəri girə bilər". Həmçinin demişlər: "Nə qədər səy göstərsən, arzuladığın şeyə bir o qədər çatarsan".**

**Deyirlər ki, təlim almaqda üç nəfərin - tələbənin, müəllimin və əgər sağdırsa, atanın səyinə ehtiyac vardır.**

**Elm öyrənən [tələbə] dərsini öyrənmək və onu təkrar etmək üçün axşam, gecə və gündüz, mübarək vaxt olan dan yeri söküləndə səy göstərməlidir. [Bununla əlaqədar belə] demişlər: "Gecəsini səhərə çevirən [adamın] gündüz qəlbi fərəhlənər".**

**Elm öyrənən gənclik və gəncliyinin çiçəkləndiyi günlərini buna sərf etməlidir. O nəinki həddindən artıq çalışıb özünü zəiflətməməli və təhsilini dayandırmamalıdır, hətta bu işdə özünə mərhəmət göstərməlidir. Bütün şeylərdə mərhəmət böyük əsasdır. Elm öyrənən tələbə elmdə kifayət qədər**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çalışqanlıq göstərməlidir. “Həqiqətən insan öz çalışqanlığı sayəsində qoşa qanadları ilə uçan quş kimi uçar”.

Tələbə bəzi şeyləri öyrənmək üçün kitabların hamısını yadda saxlamağa cəhd göstərməlidir. Əgər tələbə kifayət qədər çalışqan olub cidd-cəhd göstərməsə, yaxud cidd-cəhd göstərib kifayət qədər çalışqan olmasa, onda elmdən ancaq az bir şey öyrənə bilər. O, elmlərin fəzilətlərini və incəliklərini düşünməklə, səy göstərib, cidd-cəhd və təhsillə özünü yormalıdır. [Dünyada] elm qalır, ondan başqaları isə puç olub gedir. Elm əbədi olaraq canlıdır. [Bununla əlaqədar] demişlər: “Alimlər ölsələr də, canlıdırlar”. Aqil üçün elmin ləzzəti təhsilə çağırışdan ibarətdir.

Tənbəllik bəlğəmin və rütubətin çoxluğundan əmələ gəlir. Onların azaldılmasının yolu yeməyin azaldılması ilə bağlıdır. Ona görə ki, yaddaşsızlıq bəlğəmin çoxluğundan, bəlğəmin çoxluğu suyun çox içilməsindən, suyun çox içilməsi isə çox yeməkdəndir. Quru çörək də rütubətin qarşısını alır. Eləcə də su içməyə ehtiyac duymamaq və bəlğəmi artırmamaq məqsədi ilə bir qədər kişmiş yemək lazımdır. Dişi təmizləmək bəlğəmi azaldır, yaddaşı və nitqin gözəlliyini yaxşılaşdırır. Qusma da bəlğəmi və rütubəti azaldır.

Yeməyin azaldılması üsulu. Az yeməyin xeyri haqqında düşünsək, bu sağlamlıq, təmizlik və s. deməkdir. Çox yeməyin zərərləri haqqında düşünsək, bu xəstəliklər və insanın təbii vəziyyətindəki yorğunluq deməkdir. [Bununla əlaqədar belə] demişlər: “Qarınqululuq dərrakəni öldürür”.

Yağlı yeməklərdən deyil, ən yüngül və ləzzətli yeməklərdən istifadə etmək lazımdır. Yeməyə və yatmağa ancaq ibadət, orucluq və s. vaxtı itaət məqsədi ilə səy göstərmək lazımdır. Adi vaxtlarda yeməyə və yatmağa aludə olmaq zərərlidir.

## Beşinci fəsil
## Dərsin başlanması, həcmi və tərtibi haqqında

Dərsə [həftənin] cümə axşamı günü başlamaq lazımdır. Rəsulullahın (səllallahu əleyhi və alihi) dediyi kimi: “Cümə axşamı başlayan elə bir şey yoxdur ki, axıra çatmamış olsun”. Xeyirli işlərin hər biri cümə axşamı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**başlanmalıdır. Çünki cümə axşamı Allahın nur xəlq etdiyi gündür. Həmin gün kafirlər üçün nəhs, möminlər üçün isə mübarək gündür. Başlanğıcda dərsin həcminə gəlincə, [tələbə üçün] dərsin həcmi elə olmalıdır ki, [tələbə] onu rahatca və tədricən iki dəfə təkrarlaya bilsin. Başlanğıcda dərs uzandıqda və onu on dəfə təkrarlamağa ehtiyac olduqda, sonda da elə olur, çünki [tələbə] buna adət edir və böyük cidd-cəhdlə həmin təkrarı davam etdirir. [Bu barədə] demişlər: "Dərs bir sözdür təkrar - min".**

**Elə bir şeydən başlamaq lazımdır ki, o, [tələbənin] düşüncəsinə daha yaxın olsun. Müəllimlər [tələbələr üçün] daha yaxşı başa düşülən və yadda qalan kiçik həcmli mətnlər seçirlər. Çoxlu oxuduqdan və təkrarladıqdan sonra yeni dərs yeniləşdirmək lazımdır. Tələbə başa düşmədiyi şeyi yazmamalıdır. Bu hal onu yorur, zehnini pozur və vaxtını alır. [Tələbə] müəllimindən düşünmək, fikirləşmək və çoxlu təkrar etməklə öyrənmək üçün cidd-cəhd göstərməlidir. Əgər [tələbə] dərsi azaldıb, çoxlu təkrar etsə və düşünsə, dərk edər və başa düşər. Həmçinin [bu barədə] demişlər: "İki vərəqlik mətni eşitməkdənsə, iki sözü yadda saxlamaq yaxşıdır".**

**Əgər [tələbə] dərsin başa düşülməsində diqqətsizliyə yol verərsə və bir-iki dəfə onu başa düşməyə cidd-cəhd göstərməzsə, dərsin öyrənilməsində buna adət edəcək, sadə sözü də başa düşməyəcəkdir. O nəinki dərsin başa düşülməsində diqqətsizliyə yol verməməlidir, hətta cidd-cəhdlə çalışmalı, Allah-Taalanı çağırmalı, Ona yalvarmalıdır ki, onun dualarına cavab versin və onun yalvarışlarını rədd etməsin.**

**Elm öyrənən tələbə üçün qarşılıqlı sual-cavab və müzakirə mütləq lazımdır. O, insaflı, diqqətli və düşüncəli olmalı, səs-küydən və əsəbilikdən çəkinməlidir. Mübahisə və müzakirə həqiqəti üzə çıxaran qarşılıqlı məsləhətləşmədir. Buna da həqiqətən əsəbilik və səs-küylə yox, düşüncə və insafla nail olmaq mümkündür. Qarşılıqlı sual-cavab mücərrəd təkrardan daha faydalıdır, çünki bu zaman, təkrarla yanaşı, əlavə biliklər də verilir. [Bununla əlaqədar] demişlər: "Bir saatlıq sual-cavab bir aylıq təkrardan yaxşıdır".**

**Lakin sağlam təbiətli, ədalətli şəxs pis təbiətli insanla müzakirə aparmaqdan çəkinməlidir, [çünki] onun təbiəti gizli, əxlaqı təcavüzkar olacaq və qonşuluğu özünün təsir altına salacaqdır.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Elm öyrənən hər zaman elmin incəliklərini düşünməli və buna adət etməlidlir. Həqiqətən elmin incəlikləri düşünməklə dərk edilir. Buna görə də [belə] demişlər: "Düşünsən, dərk edərsən".**

**Sözü deməzdən əvvəl düşünmək lazımdır ki, deyilən söz düzgün olsun. Həqiqətən söz ox kimidir. Sözü deməzdən əvvəl düşünmək lazımdır ki, deyəndə üsuli-fiqhdə düz hədəfə dəysin. Bu böyük əsasdır. Həmin söz müzakirə aparan fəqihin düşünərək dediyi söz kimi olmalı, bütün hallarda və vaxtlarda hamı tərəfindən istifadə edilməlidir. Rəsulullah (səllallahu əleyhi və alihi) demişdir: "Hikmət möminin axtardığı şeydir, harada tapsa, götürər". [Bununla əlaqədar eyni zamanda belə] demişlər: "Nə safdır - götür, nə tutqundur - at".**

**Bədəni və ağlı sağlam olan kəsin elmi öyrənməməsinə heç bir üzrlü səbəb yoxdur.**

**Tələbə dilində və ərkanında Allah-Taalaya Ondan fəhm və elm gördüyünə görə, Onun kasıbları mal-dövlət və s. şeylərlə qoruduğuna görə şükr etməklə işləməli, Allahdan tofiq və hidayət diləməlidir. Həqiqətən Allah-Taala hidayət [yolunu] istəyənlərə doğru yol göstərər: "Allaha təvəkkül gətirən hər kəs hesab edir ki, Allah onun diləyini bilir. Allah hər bir şeyin taleyini müəyyənləşdirmişdir".**

**Elm öyrənən çox çalışqan olmalı, insanların mal-dövlətinə tamah salmamalıdır. Rəsulullah (səllallahu əleyhi və alihi) buyurmuşdur: "Tamahdan çəkinin, o - mövcud kasıblıqdır. İnsan öz mal-dövləti ilə nəinki xəsislik etməməli, hətta onu özünə və başqasına xərcləməlidir". Rəsulullah (səllallahu əleyhi və alihi) [həmçinin] demişdir: "İnsanların hamısı kasıblıqda olduqları halda, kasıblıqdan qorxurlar".**

**Əvvəlki zamanlarda əvvəlcə sənət, sonra isə elm öyrənirdilər ki, insanların mal-dövlətinə tamah etməsinlər. Hikmətli sözlərdə deyildiyi kimi, başqasının malı ilə varlanan kəs yoxsul olar.**

**Alim tamahkar olduqda, onun üçün elmi məşğuliyyət qalmayacaq və o, haqq sözü deməyəcəkdir. Elm öyrənən tələbə özünü hazırlamalı, təkrarın həddini yaxşı müəyyən etməli və həmin həddə çatanadək onun qəlbi rahat olmamalıdır. [Tələbə] dünənki günün dərsini beş dəfə, srağagünün dərsini dörd dəfə, ondan əvvəlki günün dərsini üç dəfə, ondan əvvəlkini iki dəfə və nəhayət, ondan əvvəlki günün dərsini bir dəfə təkrarlamalıdır. Bu yadda**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**saxlamağın və təkrarın maksimum və minimum həddidir. [Tələbə] təkrardan qorxmamalıdır, dərs və təkrar tam qüvvə və fəallıqla həyata keçirilməlidir. O, [dərsin] təkrarını yarımçıq kəsməmək naminə özünü yormamalıdır, [çünki] işlərin [ən] xeyirlisi orta vəziyyətdir. [Tələbə] elm öyrənməkdə təhsilini əvvəldən-axıra kimi davam etdirməlidir.**

## Altıncı fəsil
## Təvəkkül haqqında

**Elm öyrənən tələbə təvəkkül etməlidir. Rizq ilə bağlı işlər ona narahatlıq verməməli, onun qəlbini məşğul etməməli və səbirli olmalıdır, çünki elm öyrənmək böyük işdir və elmə yiyələnməkdə əzəmətli bir mükafat vardır ki, bu da alimlərin çoxunun yanında qiraət öyrənməkdən yaxşıdır. Ona səbir edib dözən kəs dünyanın başqa ləzzətlərindən üstün olan bir ləzzət dadmış olur. Bununla bağlı Məhəmməd bin əl-Həsən ət-Tusinin bir adəti olmuşdur. Gecələri yatmayıb problemləri həll etdikdə deyərmiş: “Bu ləzzətdən məliklərin övladları harada dada bilər?”**

**[Tələbə] başqa şeylə məşğul olmamalı, fiqhdən, hədisdən, təfsirdən və Qur’andan əl çəkməməlidir.**

## Yeddinci fəsil
## Təhsilin müddəti haqqında

**Deyirlər, oxuyub-öyrənmə dövrü beşikdən qəbrə qədərdir. Bu dövrün təhsil üçün ən yaxşı vaxtları isə gəncliyin başlanğıc illəri, dan yeri sökülən vaxt, iki axşam namazı arasıdır. Göstərilən vaxtların hamısı təlim almağa həsr olunmalıdır. Bir elmdən bezdikdə, başqa bir elmlə məşğul olmaq lazımdır.**

**Məhəmməd bin əl-Həsən gecələr yatmırdı. O, dəftərləri yanına qoyur, birindən bezdikdə, o birinə baxırdı; yanına su qoyur, yuxusu gələndə onu su ilə [üzünü yumaqla] qovurdu. O deyirdi ki, yuxu istilikdən meydana gəlir.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Səkkizinci fəsil
## Şəfqət və nəsihət haqqında

Elm sahibi şəfqətli və nəsihət verən olmalıdır. [Başqasına] həsəd aparmaq zərər verir, o nəinki xeyir gətirmir, hətta onu kamil təhsil almaq niyyətindən yayındırır. Müəllim səy göstərməlidir ki, tələbəsi onun dövründə alim olsun. Dünya alimlərindən üstün olmaq üçün o öz tələbələrinə şəfqət göstərməlidir.

Elm öyrənən heç bir kəslə çəkişməməli və ədavət aparmamalıdır, çünki bu hal vaxt aparır. Xeyirxah adam öz yaxşı əməlləri ilə mükafatlandırılacaq, pis adama isə onun bəd əməlləri özünə kifayət edəcəkdir. [Bununla əlaqədar belə] demişlər: Sən düşməninin müqavimətini qırmaq üçün yox, öz mənafeyin üçün işləməlisən. Əgər sən öz mənafeyini təmin etmək üçün çalışırsansa, düşməninin müqavimətini qırmış olursan. Düşmənçilik etməkdən çəkin, çünki düşmənçilik səni rüsvay edəcək və vaxtını alacaqdır.

Xüsusən səfehlərdən fərqli olaraq, sən düşünməlisən və mömin haqqında pis fikirləşməkdən çəkinməlisən, çünki bu [elə] ədavət mənbəyidir ki, [aşağıda] deyiləni həll etmir: "Möminləri yaxşılıqla düşünün". Həqiqətən bu insanın nəfsindən irəli gəlir.

## Doqquzuncu fəsil
## Fayda götürmək haqqında

Elm öyrənən tələbə fayda əldə etmək üçün hər bir vaxtdan istifadə etməlidir. Fayda əldə etməyin yolu belədir ki, eşitdiyi faydalı şeyləri yazmaq üçün [tələbənin] mürəkkəb qabı hər zaman onun yanında olmalıdır. [Bununla əlaqədar belə] demişlər: "Nə yadda saxlasan - qaçacaq, nə yazsan - qalacaqdır". [Həmçinin] demişlər: "Elm görkəmli şəxsiyyətlərin ağzından götürülmür, çünki onlar eşitdiklərinin ən yaxşısını yadda saxlayırlar və yadda saxladıqlarının ən yaxşısını deyirlər".



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Bir şəxs öz oğluna tövsiyə etdi ki, elmdən hər gün bir şey yadda saxlasın, bu getdikcə genişlənəcək və tezliklə çoxalacaqdır. Elm çoxdur, ömür isə qısadır.**

**Tələbə vaxtını və saatlarını itirməməli, gecələrdən və tənha qaldığı vaxtlardan fayda götürməlidir. [Bununla əlaqədar] demişlər: "Gecə uzundur, onu yatmaqla qısaltma. Gündüz işıqlıdır, günahlarınla onu bulandırma".**

**Elm öyrənən tələbə şeyxlərin [təcrübəsindən] istifadə etməli və onlardan faydalanmalıdır. O nəinki hər bir keçən şey üçün kədərlənməməli, əksinə, baş verən hər şeydən o saat istifadə etməli, elm öyrənməkdə məşəqqət və zilləti dözümlə qarşılamalıdır. Yaltaqlıq məzəmmət edilsə də, elm öyrənməkdə [qılığa girmək] olar. Tələbə fayda götürmək üçün müəlliminin, tələbə yoldaşlarının və başqalarının qılığına girməlidir. [Bununla əlaqədar belə] demişlər: "Elm əzəmətdir, onda alçalma yoxdur. Elm dikbaşlıqla yox, itaətlə dərk edilər".**

## Onuncu fəsil
## Təhsildə dindarlıq haqqında

**Bu fəsildə Rəsulullah (səlləllahu əleyhi və alihi) haqqında bir hədisdən bəhs olunur. O demişdir: "Təhsil zamanı dindar olmayan kəsi Allah-Taala üç şeydən birinə mübtəla edər: ya onu gənc yaşında öldürər, ya onu istədiyi şəklə salar, ya da sultana qulluq etməyə düçar edər".**

**Elm öyrənən tələbə nə qədər dindar olarsa, onun elmi daha mənfəətli, təhsili daha asan və daha çox faydalı olar. Dindarlıq tələbəni qarınquluLuqdan və faydasız yerə çox danışmaqdan, habelə mümkün olduqca bazar xörəyi yeməkdən çəkindirər, çünki bazar yeməyi nəcasətə və xəbisliyə yaxın, Allah-Taalanın zikr olunmasından daha uzaq, laqeydliyə isə daha yaxındır; belə ki, kasıbların gözü həmin yeməklərdə qalır, onu ala bilmədiklərindən iztirab çəkirlər, bununla da bazar xörəyinin bərəkəti gedir.**

**Elm öyrənən qeybət etməkdən və boşboğazlıqla məşğul olan məclislərdən çəkinməlidir. Boşboğazlıq edən kəs [tələbənin] ömrünü oğurlayır və vaxtını əlindən alır. Dindarlıq [isə tələbəni] fitnə-fəsadla məşğul olanlardan və dinsizlərdən uzaqlaşdırır. Şübhəsiz, məclislər insana təsir edir.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əgər tələbə [öz dərsini] təkrar və mütaliə edərkən üzü qibləyə tərəf oturursa, bu Peyğəmbərin (səllallahu əleyhi və alihi) sünnəsinə uyğun gəlir.

[Tələbə] xeyirxah insanların çağırışından istifadə edir, zülmkarlığa dəvətdən çəkinir, səy göstərərək əməlisaleh insanları öz yanına çağırır.

Elm öyrənən ədəb qaydalarına və sünnəyə riayət etməlidir. Həqiqətən "ədəb qaydalarına laqeydlik göstərən sünnədən məhrum olar, sünnəyə laqeydlik göstərən fəraizdən məhrum olar, fəraizə laqeydlik göstərən axirətdən məhrum olar".

Bəzi insanlar bu hədisin Rəsulullaha (səllallahu əleyhi və alihi) məxsus olduğunu deyirlər.

Elm öyrənən kəs ibadətini çoxaltmalı və itaətkar bəndələr kimi ibadət etməlidir. Bu təlim-təhsilə kömək edir.

[Tələbə] oxumaq üçün hər ehtimala qarşı özü ilə bir dəftər gəzdirməlidir. [Bununla əlaqədar belə] demişlər: "Kimin əlində dəftər olmasa, onun qəlbində hikmət möhkəm yer tutmaz". [Tələbənin] yanında ağ dəftər və mürəkkəb olmalıdır ki, eşitdiklərini yazsın.

Hilal bin Yəsar elm və hikməti öyrənərkən Peyğəmbər (səllallahu əleyhi və alihi) ondan soruşmuşdu: "Mürəkkəb qabı yanındadırmı?".

## On birinci fəsil
## Yaddaşı və yaddaşsızlığı yaradan amillər haqqında

Yaddaşı gücləndirən ən qüvvətli amillər cidd-cəhd göstərmək, çalışqanlıq, az yemək, itaətkarlıq və mütiliklə qılınan gecə namazıdır. Qur'an qiraəti də hafizəni möhkəmləndirən amillərdəndir. [Bununla əlaqədar belə] demişlər: "Qur'anın qiraətindən, xüsusən "Ayətül-kürsi"nin qiraətindən çox yaddaşı möhkəmləndirən heç bir şey yoxdur".

Peyğəmbərə (səllallahu əleyhi və alihi) görə, yaddaşın möhkəmləndirilməsində ən yaxşı amil Qur'anın qiraətidir. Bu barədə demişdir ki, Qur'anın qiraəti və Peyğəmbərə (səllallahu əleyhi və alihi) çoxlu dualar oxumaq ümmətimin əməllərinin ən yaxşısıdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Dişlərin təmizlənməsi, bal içmək, şəkərlə buxur və iyirmi bir ədəd qara kişmiş dənəsi yemək yaddaşı möhkəmləndirir, çoxlu xəstəlikləri və ağrıları sağaldır.**

**Bəlğəm və rütubəti azaldan hər şey yaddaşı möhkəmləndirir, bəlğəmi çoxaldan hər şey isə unutqanlıq (yaddaşsızlıq) yaradır. Yaddaşsızlığın meydana gəlməsinin səbəbi itaətsizliyin və qayğıların çoxluğu, dünya işlərində hüzn və kədər, işin və intim əlaqələrin çoxluğudur.**

**Qeyd etdiyimiz kimi, aqil adam dünya işlərinə kədərlənməməlidir, çünki bu xeyir yox, zərər gətirir. Dünyanın qayğıları qəlbi zülmətdən çıxarmaz, axirət qayğıları isə onu nurdan məhrum etmir. Elm öyrənmək hüzn və qayğıları aradan qaldırır.**

**Kərbəzə* və turş alma yemək, çarmıxa çəkilmişə baxmaq, qəbirlərin lövhələrini oxumaq, dəvələrin arasından keçmək, diri biti yerə atmaq və peysərdən qan almaq - bütün bunların hamısı yaddaşsızlıq yaradır.**

## On ikinci fəsil
## Ruzi gətirən və artıran, ömrü uzadan və qısaldan amillər haqqında

**Daha sonra, elm öyrənənə güc və sağlamlıq lazımdır ki, elm öyrənərkən onun fikri və düşüncəsi aydın olsun. Bütün bunlar haqqında bir kitab yazmışlar. Ondan bəzi şeyləri ixtisarla burada verirəm.**

**Rəsulullah (səllallahu əleyhi və alihi) demişdir: “Ancaq dua ilə ruzi artar, qədər kömək edər. Ömür isə ancaq möminliklə uzanar”.**

**Bu hədislə sübut olunur ki, günah işlətmək ruzinin kəsilməsinə səbəb olur, xüsusən yalan kasıbçılığa gətirib çıxarır. Bu haqda xüsusi bir hədisdə məlumat verilir. Murdarlanmışla cinsi yaxınlıq da ruzini aradan qaldırır. Eləcə də çox yatmaq, çılpaq yatmaq, lüt işəmək, murdarlanmışla xörək yemək, yemək stolunun üstündən düşənə etinasızlıq göstərmək, soğan və sarımsaq qabığını yandırmaq, gecə ev süpürmək, zibili evdə saxlamaq, şeyxlərin qabağından keçmək, valideynləri adı ilə çağırmaq, dişləri hər hansı bir çöplə təmizləmək, əlləri torpaq və palçıqla yumaq, evin kəndarında oturmaq,**

---

* Узун яйри формада хийар нювц



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**qapının bir tayına söykənmək, ayaqyolunda dəstəmaz almaq, paltarı bədəndə tikmək, paltarla üz qurulamaq, evdən hörümçək torunu təmizləməmək, ibadətə etinasızlıq göstərmək, məsciddən çıxmağa tələsmək, bazara getməyə təşəbbüs göstərib, oradan gec qayıtmaq, çörəyin qırıntılarını dilənçilik edən kasıbların əlindən almaq, valideynlərə pis dualar etmək, qabları təmizləməmək, eləcə də üzərində mürəkkəbi qurumuş qələmlə yazmaq, sınıq darağla baş daramaq, valideynlərə dua etməmək, oturan yerdə əmmamə geyinmək, ayaq üstə şalvar geyinmək, xəsislik, israfçılıq, hədsiz qənaətcillik, tənbəllik, başısoyuqluq, işlərə laqeydlik - bütün bunların hamısı kasıblığa səbəb olur və bunlar xalq içərisində rəvayətlər şəklində məlumdur.**

**Rəsulullah (səllallahu əleyhi və alihi) demişdir: "Onlar ruzini sədəqə ilə səhv salıblar. Erkən yetişən meyvələr və bitkilər mübarəkdir, bütün nemətləri, xüsusən ruzini artırır. Xoşbəxtlik ruzinin açarlarındandır. Yaxşı niyyətli danışıq ruzini artırır".**

**Hüseyn bin Əlinin (əleyhimas-sələvat vəs-səlam) hədisinə görə: "Zinadan qaçmaq, həyəti süpürmək, qabları yumaq var-dövlət qazanmağa gətirib çıxarır".**

**Ruzi əldə etmək üçün ən qüvvətli amillər dərin ehtiramla və itaətlə ibadət etmək, "Surətül-vaqiə"ni xüsusən gecə və şam yeməyi vaxtı oxumaq, mələklərin xeyir-dua verdiyi Yasin surəsini sübh çağı oxumaq, məscidə əzandan əvvəl gəlmək, təharətə səy göstərmək, evdə fəcr sünnəsinə və vitrə əməl etmək və boş-boşuna danışmamaqdır.**

**[Bununla əlaqədar belə] demişlər: "Özünə aid olmayan işlə məşğul olan kəs özünə aid olan işi əldən verər".**

**Əli (əleyhis-sələvat vəs-səlam) demişdir: "Müdriklik yaşına çatan az danışar".**

**Ömrü uzadan şeylər pislikdən imtina etmək, qocalara və qan qohumluğu olanlara hörmət bəsləmək, yaşıl ağacları kəsməkdən hökmən çəkinmək, dəstəmazı tam almaq və sağlamlığı qorumaqdır.**

**Elm öyrənən mütləq təbabətdən müəyyən şeylərə yiyələnməlidir. O, Şeyx İmam Əbul-Abbas əl-Mustağrifinin "Tibbün-Nəbi (səllallahu əleyhi və alihi )" kitabında topladığı tibbi biliklərə əməl etməlidir.**

**Vəlhəmdü lillahi rəbbil-aləmin.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**MÜNDƏRİCAT**

Ədəb ədəbiyyatının dəyərli abidəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

Adabül-mütəallimin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7

I fəsil. Elmin mahiyyəti və fəziləti haqqında . . . . . . . . . . . . . . . . . . 7

II fəsil. Niyyət haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8

III fəsil. Elmin, müəllimin, tələbə yoldaşının
və səbatlığın seçilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9

IV fəsil. Ciddilik, səy və çalışqanlıq haqqında . . . . . . . . . . . . . . . 10

V fəsil. Dərsin başlanması, həcmi və tərtibi haqqında . . . . . . . . . 11

VI fəsil. Təvkkül haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 14

VII fəsil. Təhsilin müddəti haqqında . . . . . . . . . . . . . . . . . . . . . . .14

VIII fəsil. Şəfqət və nəsihət haqqında . . . . . . . . . . . . . . . . . . . . . 14



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**IX fəsil. Fayda götürmək haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . 15**

**X fəsil. Təhsildə dindarlıq haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . 16**

**XI fəsil. Yaddaşı və yaddaşsızlığı yaradan amillər haqqında . . . . 17**

**XII fəsil. Ruzi gətirən və artıran, ömrü uzadan
və qısaldan amillər haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18**

XACƏ NƏSİRƏDDİN TUSİ

ADABÜL-MÜTƏƏLLİMİN

(Tələbəlik mədəniyyəti)



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bakı - 2002
Azərbaycan Milli Elmlər Akademiyası
Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

TUSİ - 800

# XACƏ NƏSİRƏDDİN TUSİ

# ADABÜL-MÜTƏƏLLİMİN



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# (Tələbəlik mədəniyyəti)

Bakı, Nurlan, 2002

**Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 5 dekabr 2001-ci il tarixli 11 №-li iclasının qərarı ilə nəşr edilir.**

**Ərəb dilindən tərcümə edən və ön sözün müəllifi:**

**Kamandar Şərifli**

**Redaktoru: Məmməd Adilov**

**Kompüter icraçısı: Suad Əhmədov**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

***Dahi Azərbaycan alimi və mütəfəkkiri Xacə Nəsirəddin Tusinin (1201-1274) orta əsr tələbəlik mədəniyyətinə, təlim-təhsil qaydalarına həsr edilmiş "Adabül-mütəəllimin" risaləsinin tərcüməsi müəllifin anadan olmasının 800 illik yubileyi münasibəti ilə ilk dəfə nəşr edilir.***

***Kitabça orta əsrlər Azərbaycanında eləcə də bütövlükdə Müsəlman Şərqində məktəb və mədrəsələr, təlim-təhsil tarixi ilə maraqlanan mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

**460300000 - 199**
***N*** **- 098-2002** **Грифли**

**© «Nurlan», 2002**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com